**Şəxsi inkişaf və Psixolojik təlimlər klubu**

Keçmişi :

° 16 May 2024-cü il tarixində HTF TGT sədri İ. NƏRİMANın təşəbbüsü eyni zamanda İradə Həsənovanın, Rüfət Həsənlinin və Aytəkin Guliyevanın mənəvi dəstəyi ilə ATU-da tanınmış psixoloq Aytac Nağılı ilə görüş təşkil olundu.

Görüşdən öncə HTF TGT sədr-Nəriman İskəndərov psixoloq Aytac Nağılı ilə birlikdə bir neçə mövzu təklif edib, bunu auditoriyanın seçiminə buraxdı. Seçim səs vermə yolu ilə aparılaraq səs çoxluğu ilə qalib mövzu – "Susmayan düşüncələrimiz" seçildi.

Tədbir üçün qeydiyyat xüsusi link vasitəsilə aparıldı və hər fakültədən 80 nəfərdən çox tələbə qeydiyyatdan keçdi. Semestrin sonu olduğundan bir neçə nəfər tələbə iştirak edə bilmədi, buna görə də 60 nəfərdən çox tələbə iştirak etmək hüquq qazandı. Tələbələrlə yanaşı, UNİVERSİTETin müəllim heyətinin də marağını cəlb edən mövzu olduğundan görüşdə həmçinin bir neçə müəllim də iştirak etdi.

Görüşdə iştirak edən müəllimlər: Rəşid Mahmudov, Şahin Süleymanov, Ziyafət Seyidova, Həyat Əliyeva, Fərəh

Məmmədova görüşün eyni zamanda seçilmiş mövzusunun aktuallığını xüsusilə vurğulayaraq ,bu kimi görüşlərin mütəmadi təşkil olunmasının tələbələrimizə faydalı olacağını bildirərək uğurlar arzuladılar. Görüşdə iştirak edən hər bir şəxsə ( istər tələbə , istərsə müəllim heyətindən olsun ) ATUnun tədris işləri üzrə prorektoru Ə. Sabir, HTF TGT sədri İ. Nəriman və psixoloq N.Aytacın imzası olan sertifikat təqdim olundu.

Bu görüşdən sonra HTF TGT SƏDRİ qərar aldı ki, bu kimi görüşlərin keçirilməsi tələbərimizə faydalı olacaq. Nə üçün bu mövzuda tələbələr və bu mövzulara marağı olan hər bir şəxsin iştirak edə biləcəyi görüşləri mütəmadi olaraq təşkil edən bir klub yaratmasın və bu faydalı görüşlərin onların asudə vaxtlarını səmərəli keçirməsində rolu olmasın?

Psixoloji narahatlıqlar hər yaşda tez-tez müşahidə olunsa da, hər cəmiyyətdə və mühitdə insanlar tərəfindən fərqli qəbul edilir. Bu tərz psixoloji problemləri olan bir çox insanın yaşadığı ‘bir həqiqət’ vardır; lakin yenə də çox insan psixiatrlara və yaxud terapistlərə müraciət etməkdən çəkinir. Halbuki fiziki narahatlıqlar kimi, psixoloji narahatlıqların da bir mütəxəssisin dəstəyi ilə həll olunması lazımdır.

Əgər bu yolda bizimlə birgə addımlasanız:

•Tanınmış və məşhur psixoloqlarla və ya həkimlərlə ,həmçinin popular natiqlərlə üz-üzə görüşmə imkanı; •Psixoloji görüşlərdə iştirak etmək;

•Psixoloji və maarifləndirici tədbirlər;

•Sağlamlığınıza daha faydalı olacaq məlumat və faktlar;

• “Psixologiya və Şəxsi inkişaf”la bağlı məlumatlandırıcı mətnlər,podkastlar və xüsusi layihələr;

•Klubun üzvləri ilə edə biləcəyiniz maraqlı və əyləncəli söhbətlər üçün səmimi qruplar;

Və daha çoxu ilə tanış olacaqsınız.

Hədəfimiz isə klubumuzun fəaliyyətini böyütmək və inkişaf etdirmək;

Hər bir tələbə yoldaşımıza həm mənəvi,həm də psixoloji dəstək olaraq onları depressiv mövzulardan uzaq tutmaq;

Diksiya təlimi,psixoloji təlimlər,maraqlı yarışmalar,əyləncəli terapiyalar və daha nələr nələr …

---

Nəticədə məqsədimiz tələbələrin psixoloji və şəxsi inkişafını dəstəkləmək, onların həyat keyfiyyətini artırmaq və sağlam psixoloji mühit yaratmaqdır. Sizləri bu səyahətdə bizə qoşulmağa dəvət edirik. Birlikdə, daha yaxşı bir gələcək üçün güclü addımlar ata bilərik!

**Sədr:** ***İskəndərov Nəriman***

**Təşkilati işlər üzrə müavin :** ***Kərimli Leyla***

**Klub daxili işlər üzrə müavin:** ***Kazımlı Məlahət***

**Layihə rəhbəri:** ***Ələsgərli Mehinbanu***

**İnsan resursları:** *Mənsimov Vüsal*

**Podkast layihəsi üzrə rəhbər:** *Rüstəmova Şəkər*

**Sosial Media Meneceri:** *Kantayev İsmayıl*